# Kənd təsərrüfatı xəbərləri

## Yeni fındıq bağları salınır

Rayonumuzun fındıq bağlarında məhsul yığımı başa çatıb. Bu il bağlardan 7 min 148 ton məhsul toplanıb. Fındıq istehsalı ötən illə müqayisədə 125 ton artıb.



Rayon dövlət aqrar inkişaf mərkəzindən bildiriblər ki, ölkə Prezidentinin kənd təsərrüfatının ənənəvi sahələrindən olan fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlər uğurla icra olunur. Belə ki, 2018-ci ilin yaz əkini dövründə rayon ərazisində 120 hektar sahədə yeni fındıq bağları salınıb və bu iş payız mövsümündə də davam etdiriləcək. Payız aylarında rayonda 700 hektaradək sahədə yeni bağların salınması nəzərdə tutulur. Fındıq tingləri əkiləcək sahələrdə hazırlıq işləri işləri başa çatdırılmaq üzrədir.

Ümumiyyətlə, son 3 ildə rayon ərazisində 1338 hektar sahədə yeni fındıq bağları salınaraq, mövcud bağların ümumi sahəsi 6 min 244 hektara çatdırılıb. Bağların 4 min 445 hektarı barverəndir.

**“Qəbələ”**

### Mütəxəssis məsləhəti

## Meyvə ağaclarını əkəndə nəyə diqqət yetirmək lazımdır

Ağaclar yaz və payız aylarında əkilməlidir. Əgər əkin payızdadırsa, o zaman oktyabrın ikinci yarısından gec olmayaraq, əgər yazdadırsa, aprelin ikinci yarısı - mayın əvvəlindən gec olmayaraq həyata keçirilməlidir. Ağac gec əkildiyi zaman zəif kök salır və əlavə suvarmaya ehtiyac olur.

Meyvə ağaclarının əkilməsi zamanı əkin materiallarının vəziyyəti önəm kəsb edir. Əgər köklər quruyubsa, ağacı əkmədən öncə onları 12-24 saat suda saxlamaq lazımdır. Köklərin quruması ağacın tutub-tutmamasına mənfi təsir göstərir. Köklərdə qurumuş hissələr varsa, ehtiyatla sağlam köklərə qədər kəsilməlidir. Kəsərkən maksimum az və düz (əyri kəsmək olmaz) kəsmək lazımdır.

Əkinin düzgün dərinliyini bilmək də çox vacibdir. Dərinlik az olarsa, ağacın kökləri qışda şaxtadan, yayda isə istidən məhv olar. Əksinə, çox dərinə əkilərsə, o zaman da ağac quruyur, kökləri zəif inkişaf edir. Ağacı düzgün əkmək üçün nəzərə almaq lazımdır ki, əkin zamanı yeni qazılmış çuxur yenidən torpaq ilə örtüldüyü zaman müəyyən daralma baş verir. Düzgün əkilmiş ağacın kök boyuncuğu (kökün gövdəyə keçid hissəsi) torpağın səthindən 4-5 santimetr hündürlükdə olmalıdır. Əkildikdən sonra ağac çuxurda normal vəziyyət alır. Belə ki, onun kök hissəsi torpaq qatı ilə eyni səviyyədə olacaq. Çuxurun uzunluğu boyunca nazik dirək qoyaraq ağacın əkilməsi üçün lazımi dərinliyi asanlıqla təyin etmək olar.

Ağacın əkilməsini iki nəfər həyata keçirməlidir. Bir nəfər ağacı çuxura yerləşdirir, köklərini düzəldir, ikinci şəxs isə yavaş-yavaş çuxuru torpaq ilə doldurur. Köklərin aralarına torpağın tam dolması üçün ağacı saxlayan şəxs ehmalca onu tərpədir. Köklər tam örtüldükdən sonra şitilin ətrafındakı torpaq bərkidilir. Ağacı əkərkən köklərin çuxur boyu tam uzadılmasına, ucların yuxarıya doğru əyilməməsinə diqqət etmək lazımdır. Ağac çuxurun tam ortasında əkilməlidir. Çuxuru doldurarkən torpağın yalnız üst qatı istifadə olunmalıdır.

Əgər ağac yazda əkilirsə, o zaman günəşin təsirindən qorumaq üçün onu, şimal və ya şimal-şərq istiqamətlərdə əkmək lazımdır. Ağacın yaz və ya payızda əkilməsindən asılı olmayaraq, əkilmiş hər ağacın ətrafında balaca quyu qazılır və ora 2-3 vedrə su tökülür. Bununla sadəcə torpağı sulamaq yox, eyni zamanda, nəmləndirərək köklərin torpağa tam oturması təmin edilmiş olur. Sulandıqdan sonra səthin üzəri dağınıq torpaq və ya torf ilə örtülür. Bu, torpaqda nəmin qorunub saxlanılması və üzərində lazımi qabığın əmələ gəlməsi üçün vacibdir.

## Bu il 20 min100 hektar sahədə payızlıq dənli bitkilər əkiləcək

Rayonumuzun təsərrüfatlarında 2019-cu ilin məhsulu üçün payızlıq dənlilərin səpininə başlanılıb. Fermerlər indiyədək 1600 hektar sahəyə buğda, 3600 hektar sahəyə isə arpa səpiblər. Cari mövsümdə rayonda gələn ilin məhsulu üçün 20 min 100 hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə bildirib ki, payızlıq dənlilərin səpini üçün indiyədək təsərrüfatlarda 19 min 200 hektar sahədə şum aparılıb və bu iş davam etdirilir. Səpin üçün 4600 ton yüksək reproduksiyalı toxum fondu ayrılıb. Taxıl səpininə 110-dan çox traktor, 62 ədəd taxılsəpən aqreqat və digər texnikalar cəlb olunub. Taxıl istehsalçıları payız səpinini noyabrın sonunadək başa çatdırmağı planlaşdırırlar.

Cari mövsümdə fermerlər 20 min 100 hektar taxıl sahəsindən 64 min 646 ton məhsul əldə ediblər.

**“Qəbələ”**

## Arıçımız Türkiyədə keçiriləcək bal festivalına dəvət alıb

Qəbələli arıçı Türkiyədə keçirilən “Çam balı” festivalına dəvət alıb. Festivala şabalıd balı aparmaq istəyən Kötüklü kənd sakini, arıçı Səbuhi Nəbiyev müxbirimizlə söhbətdə nəsilliklə arıçılıqla məşğul olduqlarını, onun da ailənin arıçılıq ənənələrini davam etdirdiyini deyib. O, 170 arı ailəsinə qulluq göstərdiyini, hər arı pətəyindən isə orta hesabla 10-12 kiloqram bal götürdüyünü əlavə edib.



“Boz Qafqaz”, və “Karnika” arı cinslərini bəsləyən Səbuhi Nəbiyev rayonumuzun turizm mərkəzi olması ilə əlaqədar Qəbələdə “Bal evi” açıb. Burada bal məhsullarını xarici turistlərə təqdim etmək üçün geniş imkanlar yarandığını bildirən arıçı istehsal etdiyi məhsulu brendləşdirmək və müasir qablaşdırmada təqdim etmək niyyətindədir.

O, arı yeşiklərini yaz mövsümündə rayonun cənubundakı Savalan kəndinin ərazisinə, yayda havalar istiləşəndə isə şimala, dağətəyi zonaya aparır.

Arıçılığa subsidiyaların ayrılmasını alqışlayan sahibkar bunun çox müsbət hal olduğunu qeyd edərək, həmin vəsaitin əlavə 50 pətək almağa imkan verəcəyini söyləyib.

**“Qəbələ”**

## Fermerlər müasir texnologiyanın tətbiqinə üstünlük verməlidirlər

Nazirlər Kabinetinin 2018-ci il doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı iri fermer təsərrüfatlarında, xüsusən taxılçılıqda nəticələrin çox yaxşı olduğunu deyib, tətbiq olunan texnoloji prosesin bütün təsərrüfatlara yayılmasının vacibliyini bildirib.

Ekspertlər bildirirlər ki, müasir idarəetmə sistemində biznesin davamlılığının və rentabelliyinin təmin edilməsi üçün iki əsas məsələ həllini tapmalıdır: biznesin profilinə uyğun insan amilinə bağlı təsərrüfatın formalaşdırılması və müasir texnologiyaların istehsal proseslərinə tətbiq olunması. Azərbaycanda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən biznes subyektləri, fermerlər ənənəvi qaydalardan uzaqlaşaraq, müasir texnika və texnologiyanın imkanlarını tətbiq etməklə məhsul istehsalına üstünlük verməlidirlər. Düzdür, çox kiçik ailə fermer təsərrüfatlarının bu müasir texnologiyanı və avadanlıqları istehsalda tətbiq etməsi çətindir, amma böyük və orta ölçülü təsərrüfatların tətbiqi vacibdir. İdarəetmənin avtomatlaşması nəticəsində xərclərin optimallaşdırılaraq minimuma endirilməsi və istehsalda yaranan əlavə dəyərlə məhsuldarlığın artırılması təsərrüfatlarda mənfəətliliyin artırılmasına dəstək olacaq. Bu da məhsulların daha keyfiyyətli və rəqabətə davamlı olmasına gətirib çıxaracaq.

Əkiləcək bitkilərin torpağın tərkibinə və toxum növlərinə görə müəyyən edilməsi, heyvandarlıqda süni mayalamanın vaxtında tətbiqi üçün digital sistemlərlə fərdi nəzarət aparılması və doğuma qədər prosesin günlük izlənməsi, avtomatlaşdırılmış sağım sistemləri ilə hər heyvan üçün süd məhsuldarlığına nəzarət və gizli xəstəliklərin aşkarlanması, ərazilərə əkilmiş bitkilərin suvarma ehtiyacının müəyyən edilməsi kimi texnologiyanın yeni imkanları istifadə olunmaqdadır. Bu proseslərin tətbiqi üçün ciddi maliyyə vəsaitlərinə ehtiyac yaranır və bu, necə həll oluna bilər? Dövlət bu işdə də fermerin yanındadır və öz dəstəyini göstərir. Məsələn, hazırda torpağın tərkibinin müəyyən edilməsi və torpaqlara görə toxum sortlarının müəyyən olunması üçün dövlət tərəfindən laboratoriyalar qurulub və fermerlər bu imkanlardan istifadə edə bilərlər. "Aqrolizinq" ASC-nin xətti ilə ölkəyə dövlət vəsaiti hesabına müasir texnika və avadanlıqlar gətirilir. Fermerlər bu texnikaları güzəştli şərtlərlə satın alır və ya bölgələrdə qurulan xidmət imkanlarından istifadə edirlər. Son olaraq Sahibkarlığın İnkişafı Fondu və Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən fermerlərə layihələrin reallaşdırılması üçün güzəştli şərtlərlə kreditlər ayrılır.

Qeyd edək ki, hazırda orta və kiçik fermer təsərrüfatlarının istehsal proseslərində müasir texnoloji imkanlardan istifadə hələlik aşağı səviyyədədir. Fermerlər yaradılan şəraitdən düzgün istifadə edərək yeni texnika və texnologiyanın istehsal proseslərinə tətbiq edilməsinə üstünlük verməlidirlər. Eyni zamanda, bu texnika və texnologiyaların istehsal prosesində davamlılığının təmin edilməsi üçün emalat və maşınqayırma sənayesinin yaradılması ilə paralel olaraq, bu sahədə ixtisaslı kadrların yetişdirilməsi də vacib amillərdən biridir.

## Kənd təsərrüfatının istehsalı 4,3 faiz artıb

2018-ci ilin yanvar-sentyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5674,0 milyon manat təşkil edib ki, onun da 2773,4 milyon manatı heyvandarlıq, 2900,6 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Dövlət Statistika Komitəsindən AZƏRTAC -a bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 4,3 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,7 faiz, bitkiçilik məhsulları üzrə isə 5,8 faiz artıb.



Həmçinin 1051,4 min hektar dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahələrindən 3049,6 min ton və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,6 faiz çox məhsul götürülüb, orta hesabla hər hektardan 29,2 sentner məhsul əldə edilib.

Bundan əlavə, 24,1 min hektar dən üçün qarğıdalı sahəsindən 151,0 min ton məhsul toplanıb, hər hektardan orta hesabla 62,7 sentner qarğıdalı dəni götürülüb.

Qarğıdalı dəni nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3200,6 min ton olub